Məhəmməd Quluzadə

# Azərbaycanda Qeyri-Hökumət Təşkilatlarının hesabatlılığına dair BƏLƏDÇİ

# A Guide for NGO Reporting in Azerbaijan

Bakı - 2018

# Azərbaycanda Qeyri-Hökumət Təşkilatlarının hesabatlılığına dair

# BƏLƏDÇİ

# A Guide for NGO Reporting in Azerbaijan

Məhəmməd Quluzadə

Bakı - 2018

# Azərbaycanda Qeyri-Hökumət Təşkilatlarının hesabatlılığına dair

# BƏLƏDÇİ

**Mündəricat**


**Giriş**

**I hissə: Ədliyyə Nazirliyi qarşısında öhdəliklər**
1.1. Hüquqi və faktiki ünvanın dəyişdirilməsi 7
1.2. Dövlət reyestrinə daxil edilən məlumatların dəyişdirilməsi 8
1.3. Filial və nümayəndəliklərin yaradılması 10
1.4. İctimai birliyin üzvlərinin reyestri 11
1.5. İctimai birliyin ümumi yığıncaqları 11
1.6. QHT-nin nizamnaməsində dəyişikliyin edilməsi 12
1.7. Qrantların qeydiyyatı 13
1.8. İanələri qeydiyyatı 16
1.9. Xidmət müqavilələrinin qeydiyyatı 18

**II hissə: Vergilər Nazirliyi qarşısında hesabatlılıq** 20

**III hissə: Maliyyə Nazirliyi qarşısında hesabatlılıq**
3.1. QHT-lərin illik maliyyə hesabatları 22
3.2 . Fondlarda illik auditin keçirilməsi 23

**IV hissə: Statistik Məlumatlar** 25

**V hissə: Dövlət Sosial Müdafiə Fondu qarşısında hesabatlılıq** 25

**VI hissə: Dövlət Məşğulluq Xidməti qarşısında hesabatlılıq** 29

**VII. Terrorizm və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində öhdəliklər** 31

**İstifadə olunmuş sənədlərin siyahısı** 35

**<u>Əlavələr:</u>**

1. Vergilərin ödənilməsi və bəyannamələrin verilməsi müddətləri
2. İnzibati Xətalar Məcəlləsindən çıxarışlar
3. Hesabat formaları – Ədliyyə Nazirliyi
4. İanənin qeydiyyatına dair ərizə
5. Xidmət müqaviləsinin qeydiyyatına dair ərizə

# Giriş

Təqdim olunan Bələdçi yerli QHT-ləri[1] və Azərbaycanda fəaliyyət göstərən xarici QHT-ləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə təsbit olunmuş hesabatlılıq öhdəlikləri ilə tanış etmək məqsədilə hazırlanmışdır.

Fəaliyyəti zamanı QHT nizamnaməyə, hüququ ünvana və ya təsisçilərə dəyişiklik etmək zərurəti ilə rastlaşa bilər. Belə dəyişikliklər hesabatlılıq öhdəliyi yaradır. Bələdçi Azərbaycanda QHT-lərin fəaliyyətinə təsir edən qanunlardan irəli gələn bu və digər məsələlərə dair praktik həllər təklif edir.

Bələdçi, həmçinin, qrantın qeydiyyatı, vergi orqanına, Sosial Müdafiə Fonduna və digər orqanlara hesabatların hazırlanması və təqdim edilməsi kimi məsələlərə dair faydalı məlumatları özündə əks etdirir.

Azərbaycan Respublikasının qanunvericiliyinə 2013-cü ilin dekabr ayında edilən dəyişikliklərlə[2] QHT haqqında qanunun müddəaları həmçinin Azərbaycanda fəaliyyət göstərən xarici QHT-lərə də şamil edilir. Bundan başqa, yerli QHT-nin fəaliyyət göstərdiyi hüquqi mühitlə tanışlıq xarici QHT-lərə yerli tərəfdaşlarla münasibətlərini qanun çərçivəsində qurmaqda yardımçı olacaq.

QHT müvafiq dövlət orqanlarına vaxtında və düzgün hesabatlar təqdim etməklə özünü sanksiyalardan sığortalamış olacaq. Bu Bələdçi QHT-lərə hesabatların vaxtlı-vaxtında və düzgün hazırlanmasında köməklik edəcək.

Qrantların, ianələrin və xidmət müqavilələrinin Ədliyyə Nazirliyində qeydiyyata alınması, layihələr üzrə müvafiq vergi, sosial sığorta və digər ödənişlərin həyata keçirilməsi prosedurları da Bələdçidə geniş şərh edilmişdir.

---

[1] "QHT" dedikdə ictimai birliklər və fondlar nəzərdə tutulur.

[2] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu (bundan sonra "QHT haqqında Qanun"), 13 iyun 2000-ci il.

Hazırkı Bələdçi tərəfimizdən 2014-cü ildə dərc edilmiş eyni adlı Bələdçinin yenilənmiş versiyasıdır və 10 oktyabr 2018-ci il üçün mövcud olan qanunvericiliyə əsasən hazırlanıb.

# Təşəkkür sözləri

Təqdim olunan Bələdçinin hazırlanmasında və ərsəyə gəlməsində köməyi olan h.f.d. Cavid Qədirova, mərhum Azər Qasımova, vəkil Emin Rzayevə və əməyi keçən hər bir şəxsə öz minnətdarlığımı bildirirəm. Eyni zamanda, Bələdçiyə dair öz rəylərini və qeydlərini paylaşmaqla onun daha da mükəmməl vəsait olmasına kömək edən Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına və müvafiq dövlət qurumlarına xüsusi minnətdarlığımı bildirirəm.

h.f.d. M.Quluzadə

# I hissə: Ədliyyə Nazirliyi qarşısında öhdəliklər

## 1.1. Hüquqi ünvanın dəyişdirilməsi

Hər bir QHT dövlət qeydiyyatına alınmaq üçün Ədliyyə Nazirliyinə müraciət etdikdə hüquqi ünvanı barədə məlumatı öz nizamnaməsində əks etdirməlidir. Məlum olduğu kimi hüquqi ünvan faktiki ünvanla, yəni QHT-nin faktiki mövcud olduğu yer ilə fərqli ola bilər. 17 dekabr 2013-cü ildə qanunvericiliyə edilən dəyişikliklərə əsasən artıq faktiki ünvan dəyişdiyi halda da məlumat vermək öhdəliyi yaranmışdır. Beləliklə, qeyri-hökumət təşkilatının (ictimai birliyin və ya fondun) hüquqi (və ya faktiki) ünvanı dəyişərsə, bu barədə məlumat 7 gün müddətində yazılı şəkildə Ədliyyə Nazirliyinə təqdim edilməlidir.[3] Hüquqi ünvanın dəyişməsinə dair ərizə forması Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənib[4] və bu Bələdçiyə əlavə olunub. Ərizəyə yeni ünvana dair sənəd qoşulur.

Ünvan dəyişikliyi barədə məlumat vaxtında təqdim edilməsə, Ədliyyə Nazirliyi QHT-yə rəsmi xəbərdarlıq edə bilər və il ərzində bu və ya digər əsasla bir QHT 2 yazılı xəbərdarlıq alarsa, onun ləğvi məsələsi Ədliyyə Nazirliyi tərəfindən məhkəmə qarşısında qaldırıla bilər.

---

[3] QHT haqqında Qanun, maddə 3.3; "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (4 oktyabr 2000-ci il), maddə 2.2.

[4] "Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin dövlət qeydiyyatının aparılması Qaydaları" (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 19 mart 2012-ci il tarixli Kollegiya Qərarı ilə təsdiqlənib), maddə 7.1 (Əlavə 4).

### 1.2. Dövlət reyestrinə daxil edilən məlumatların dəyişdirilməsi

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən QHT təsis sənədləri və dövlət reyestrində olan məlumatları dəyişərkən, bu barədə 40 gün ərzində Ədliyyə Nazirliyinə məlumat verməlidir.[5] Ərizədə baş vermiş dəyişiklik göstərilməli və həmin dəyişikliyi təsdiq edən sənədlər, həmçinin, dəyişikliyin təsdiq olunması barədə qərar əlavə edilməlidir. Dəyişiklik qanuna zidd olmadıqda, Ədliyyə Nazirliyi 5 gün müddətində dəyişikliyi qeydiyyata alır.

Aşağıda göstərilən məlumatlar reyestrə daxil edilir:

- QHT-nin adı;
- QHT-nin hüquqi ünvanı (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerə dair məlumat);
- QHT-nin təşkilati-hüquqi forması (ictimai birlik və ya fond);
- Maliyyə ili;
- Qeyri-kommersiya qurumunun qeydiyyat nömrəsi;
- QHT-nin hər bir təsisçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri. Təsisçi hüquqi şəxsdirsə, onun adı, hüquqi ünvanı və qeydiyyatı haqqında məlumatlar;
- Təsisçi dövlət olduqda – təsisetmə səlahiyyəti verilmiş dövlət orqanının adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (olduğu halda), təsisçi bələdiyyə olduqda – bələdiyyənin adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;
- QHT-nin hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri;

---

[5] Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu (12 dekabr 2003-cü il), maddə 9; "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (12 aprel 2004-cü il), maddə 2.1.

- QHT-nin yaratdığı qurumların olduğu yer, təşkilati-hüquqi forması və qeydiyyatı haqqında məlumatlar;
- QHT-nin fəaliyyət predmeti və məqsədləri, fəaliyyət ərazisi, ictimai birliklərin üzvlərinin sayı;
- QHT-nin əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan təsisçisinin (təsisçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi;
- Fondların himayəçilər şurasının üzvləri, fondun nizamnamə kapitalı və təsisçilərin əmlak paylarının həcmi haqqında məlumatlar;
- Azərbaycan Respublikasında filial və ya nümayəndəliyi olan xarici qeyri-hökumət təşkilatının təsisçiləri, filial və ya nümayəndəliyin rəhbərinin və onun müavininin səlahiyyət müddəti, eləcə də rəhbərinin müavininin adı, soyadı, atasının adı, vətəndaşlığı, yaşayış yeri barədə məlumatlar, habelə dövlət qeydiyyatı ilə əlaqədar bağlanmış sazişin qüvvədə olma müddəti barədə məlumatlar;
- Qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində icra orqanlarının tərkibi və səlahiyyət müddəti, qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi, ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması, quruma edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılmasına və bərpa edilməsinə dair məlumatlar.

Qeyd etmək istərdik ki, QHT-də eyni şəxs yenidən sədr seçilsə belə bu məlumat müvafiq ərizə ilə Ədliyyə Nazirliyinə təqdim edilməli və reyestrdən yeni çıxarış əldə olunmalıdır.

Reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasına dair ərizə forması Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənib[6] və bu Bələdçiyə əlavə olunub.

Dövlət reyestri üçün məlumatların təqdim edilməməsinə görə qeyri-hökumət təşkilatına xəbərdarlıq edilir. Qanuna görə Ədliyyə Nazirliyi QHT-yə yazılı surətdə xəbərdarlıq və ya pozuntuların aradan qaldırılması haqqında göstəriş verə bilər. Hər hansı bir QHT bir il ərzində ikidən çox belə yazılı xəbərdarlıq və ya göstəriş alarsa, o, məhkəmənin qərarı ilə ləğv edilə bilər.[7]

Bundan başqa QHT Ədliyyə Nazirliyinə yanlış reyestr məlumatı verdikdə 4000 manat miqdarında cərimə edilə bilər.[8] Buna təsis sənədlərində və reyestrdə qeydə alınmış faktlara sonrakı dəyişikliklərin daxil edilməsi də aiddir.

### 1.3. Filial və nümayəndəliklərin yaradılması

Qeydiyyata alınmış QHT Azərbaycanda və ya xaricdə filial yaradarsa və ya nümayəndəlik açarsa, bu barədə 10 gün müddətində Ədliyyə Nazirliyinə məlumat verməlidir.[9]

QHT-nin filial və ya nümayəndəliyinin əsasnaməsində onu yaratmış təşkilatın adı, dövlət qeydiyyatı haqqında məlumatlar

---

[6] "Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin dövlət qeydiyyatının aparılması Qaydaları" (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 19.03.2012-ci il tarixli Kollegiya Qərarı ilə təsdiqlənib), maddə 7.1 (Əlavə 4).

[7] QHT haqqında Qanun, maddələr 31.2, 31.4; "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (4 oktyabr 2000-ci il), maddə 2.2.

[8] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 403.

[9] QHT haqqında Qanun, maddə 7.1; "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (4 oktyabr 2000-ci il), maddə 2.2.

(qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı, onun qeydiyyatını aparmış qurumun adı), filial və ya nümayəndəliyin hüquqi ünvanı, idarə edilməsi qaydası, rəhbərinin səlahiyyətləri, ləğv olunması qaydası göstərilməlidir[10].

Yerli QHT-lərin yaratdığı filial və nümayəndəlik üçün ayrıca VÖEN açılmır və onların rəhbərinin dəyişməsi barədə məlumatı Ədliyyə Nazirliyinə təqdim etmək tələb edilmir.

## 1.4. İctimai birliyin üzvlərinin reyestri

İctimai birlik dövlət qeydiyyatına alındıqdan sonra 30 gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin etməlidir.[11] Qanunvericilikdə bu reyestrə dair əlavə tələblər qoyulmadığı üçün tövsiyə edilir ki, aşağıdakı məlumatlar üzvlərin reyestrində əks olunsun:

- Üzvün adı, soyadı və atasının adı;
- Üzvün ünvanı, telefonu və emaili;
- Üzvlüyə qəbul edildiyi tarix;
- Üzvün təhsili və işlədiyi yer barədə məlumat.

QHT-lərin üzvlərinin sayı hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumat olduğundan QHT üzvlərinin sayında edilmiş dəyişiklik 40 gün ərzində ƏN-ə müraciət edilməklə qeydiyyata alınmalıdır.[12]

## 1.5. İctimai birliyin ümumi yığıncaqları

---

[10] QHT haqqında Qanun, maddə 7.4-1.

[11] QHT haqqında Qanun, maddə 10.4.

[12] Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu (12 dekabr 2003-cü il), maddə 14.2.3, maddə 9; "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (12 aprel 2004-cü il), maddə 2.4.1.

Qeydiyyata alınmış ictimai birlik ildə ən azı bir dəfə üzvlərinin ümumi yığıncağını keçirməlidir. Yığıncağın yeri və vaxtı haqqında ən azı 2 həftə əvvəl təsisçi və üzvlərə məlumat verilməlidir. Məlumatın hansı vasitəilə verilməsini (misal üçün, email, telefon, qazetdə elan və s.) ictimai birlik özü müəyyən edir. Ümumi yığıncaq yalnız birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə nizamnaməyə dəyişikliklər edə bilər. Ümumi yığıncağın qərarı yığıncaqda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir.[13]

Ümumi yığıncağın səlahiyyətlərinə aşağıdakı məsələlər aiddir:

- İctimai birliyin nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;
- İctimai birliyin əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;
- İctimai birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
- İllik hesabatın təsdiq edilməsi;
- Başqa təşkilatlarda iştirak;
- İctimai birliyin yenidən təşkili və ləğv edilməsi.

## 1.6. QHT-nin nizamnaməsində dəyişikliyin edilməsi

Qanuna əsasən, ictimai birliyin nizamnaməsinə dəyişikliklər onun ali idarəetmə orqanı tərəfindən yalnız birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə edilə bilər. Fondun nizamnaməsinə dəyişikliklərin edilməsi fondun Himayəçilik Şurası tərəfindən və yalnız fondun məqsədləri istiqamətində edilə bilər. Fondların nizamnaməsində onun bu qaydada dəyişdirilməsi imkanının nəzərdə tutulması tələb edilir. Əks halda nizamnaməyə dəyişikliklər fondun Himayəçilik Şurasının ərizəsi əsasında məhkəmə tərəfindən edilə

[13] QHT haqqında Qanun, maddə 25.2 və 25.6.

bilər. Dəyişikliklərin qeydiyyatını Ədliyyə Nazirliyi həyata keçirir və dəyişikliklər dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.[14]

Təsis sənədlərində edilmiş dəyişikliklərin sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasına dair ərizə formaları Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənib.[15] Bura təsis sənədlərində edilmiş dəyişikliklərin qeydiyyatı üçün ərizə (Əlavə 4) və nizamnaməyə (və ya əsasnaməyə) edilmiş dəyişikliyi və ya əlavəni özündə əks etdirən sənəd (2 nüsxədə) (Əlavə 5) daxildir. Yeni redaksiyada nizamnamə (və ya əsasnamə) təsdiq edildikdə, onun 2-ci, 3-cü və s. redaksiya olması titul vərəqində göstərilir. (Əlavə 6)

## 1.7. Qrantların qeydiyyatı

Azərbaycanda qeydiyyatdan keçmiş QHT-lər tərəfindən qrant verilməsi və alınması haqqında müqavilələr və qərarlar Ədliyyə Nazirliyi tərəfindən qeydə alınmalıdır.[16] Dövlət büdcəsi hesabına verilmiş qrant barədə məlumat qrant müqaviləsini (qərarını) qeydə alan orqana donor tərəfindən təqdim edilir. Yəni, QHT qrantı AR Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasından, Gənclər və İdman Nazirliyindən, AR Prezidenti yanında Gənclər Fondundan və s. alarsa, bu qrant müqaviləsinin surətini həmin qurumlar Ədliyyə Nazirliyinə təqdim etməlidirlər.

QHT, qrant haqqında müqavilə bağlandığı və ya qərar verildiyi gündən 30 (otuz) gündən gec olmayaraq müqavilənin

---

[14] QHT haqqında Qanun, maddə 14; "Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (4 oktyabr 2000-ci il), maddə 2.2.

[15] "Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin dövlət qeydiyyatının aparılması Qaydaları" (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 19.03.2012-ci il tarixli Kollegiya Qərarı ilə təsdiqlənib), maddə 7.

[16] Qrant haqqında Azərbaycan Respublikasının Qanunu (17 aprel 1998-ci il), maddə 4.

(qərarın) qeydiyyatı üçün Ədliyyə Nazirliyinə ərizə ilə müraciət etməlidir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

- müqavilənin (qərarın), o cümlədən əlavə müqavilənin (qərarın) və ya onlarda edilmiş dəyişikliyin tərəflərin imzaladığı əslinin nüsxəsi;
- müqavilə (qərar) üzrə həyata keçirilməsi nəzərdə tutulan layihənin tərəflərin imzaladığı əslinin nüsxəsi;
- donor (resipiyent) olan fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti
- ərizə donor və ya resipient adından başqa şəxs tərəfindən verildikdə, habelə müqaviləni (qərarı) qanuni təmsilçi olmayan şəxs imzaladıqda, onların müvafiq səlahiyyətə malik olması barədə sənəd (müqavilənin qeydiyyata alınması ilə bağlı sənədləri imzalamaq səlahiyyəti müqavilədə göstərilmədiyi halda)
- Qrantın maliyyə-iqtisadi əsaslandırması.

Əsaslandırmanın məzmununa dair heç bir təlimat yoxdur. Onun məzmunu QHT müəyyən edir. Maliyyə-iqtisadi əsaslandırmaya cavab olaraq Maliyyə Nazirliyi rəy təqdim edir. Qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyi barədə "müsbət" və ya "mənfi" rəy üçün heç bir meyar yoxdur. Təcrübədə bu yalnız Maliyyə Nazirliyinin razılığını və ya imtinasını əks etdirən məktubdur.

Tövsiyyə olunur ki, bu sənədlərlə yanaşı illik maliyyə hesabatının təqdim olunmasına dair bildiriş də ərizəyə əlavə edilsin.

Sənədlər xarici ölkədə tərtib olunduqda, leqallaşdırılmalı və ya onlara apostil verilməlidir. Sənədlər xarici dildə tərtib edildikdə, onların tərcüməsi də əlavə edilir.

Ədliyyə Nazirliyi ərizələrin və sənədlərin təqdim edildiyi gündən, qeydiyyatın dayandırılmasına və ya imtinaya əsas olmadıqda, 15 (on beş) gün müddətində həmin müqaviləni (qərarı)

qeydə alır və bu barədə müraciət edən hüquqi və ya fiziki şəxsə bildiriş verir.[17].

Qrant müqaviləsinin (qərarın) qeydiyyat üçün Ədliyyə Nazirliyinə təqdim edilməməsinə görə QHT 5000 manatdan 7000 manatadək miqdarda cərimə edilə bilər.[18] Eyni zamanda qeyd etmək lazımdır ki, qrant müqaviləsi (qərarı) olmadan Azərbaycan Respublikasında fəaliyyət göstərən dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri tərəfindən maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada yardımın qəbul edilməsinə görə inzibati xətanın bilavasitə obyekti olmuş vəsait və əşyalar müsadirə olunmaqla vəzifəli şəxslər 2500 manatdan 5000 manatadək miqdarda, hüquqi şəxslər 8000 manatdan 15000 manatadək miqdarda cərimə edilir[19].

Qrant verilməsi və ya alınması haqqında qeydə alınmayan müqavilələr (qərarlar) üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar keçirilə bilməz[20]. Bankdan qrant vəsaitini çıxartmaq üçün banklar qrantın qeydiyyatına dair Ədliyyə Nazirliyinin verdiyi bildirişi tələb edir.

Yuxarıda qrant müqavilələrinin (qərarlarının) qeydə alınması ilə bağlı göstərilmiş tələblər qrant müqaviləsi (qərarı) üzrə əlavə müqavilələrin, habelə müqavilələrin (qərarların) müddətinin, məqsədinin, məbləğinin dəyişdirilməsi hallarına da şamil olunur. Eyni zamanda qrant müqaviləsi üzrə subqrantlar da qeydə alınmalıdır.

QHT tərəfindən qrant müqaviləsini (qərarını) yalnız səlahiyyətli şəxs imzalaya bilər.

---

[17] Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 iyun 2015-ci il tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmişdir), 2.1 və 2.2-ci, 4.1-ci bəndlər.

[18] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 432.1.

[19] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 432.3.

[20] Qrant haqqında Azərbaycan Respublikasının Qanunu (17 aprel 1998-ci il), maddə 4.5.

## 1.8. İanələrin qeydiyyatı

"İanə" ifadəsi QHT haqqında Qanuna 2013-cü ilin fevral ayında daxil edilib.[21] Burada "İanə qeyri-hökumət təşkilatına [...] bu qanuna uyğun olaraq və hər hansı bir məqsədə nail olmaq məqsədi güdməyən pul şəklində və (və ya) başqa maddi formada [...] edilən yardım" olaraq izah olunur.

*İanə və qrant arasında əsas fərqlər*

1. Məqsədi: ianə hər hansı məqsəd üçün verilə bilməz. Donor tərəfindən ianəyə heç bir şərt əlavə edilə bilməz. İanə ilə bağlı fəaliyyətlər QHT-nin iradəsi ilə onun öz nizamnaməsinə və qanunvericiliyə uyğun olaraq həyata keçirilə bilər. İanədən fərqli olaraq, qrant yalnız konkret məqsəd (və ya məqsədlər) üçün verilir.
2. Resipiyentlər: yalnız qeydiyyatdan keçmiş QHT-lər və Azərbaycanda qeydiyyatdan keçmiş ofisi olan XQHT-lər ianə qəbul edə bilər, fərdi şəxslər də həmçinin ianə qəbul edə bilər.
3. İanə verən: Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, Azərbaycanda qeydiyyatdan keçmiş ofisi olan XQHT-lər ianə verə bilər.
4. Qrant və ianə şəklində verilən aktivlər: ianələr nağd şəkildə verilə bilməz, lakin istisna olaraq xeyriyyə təşkilatına 200 ($115) manatadək ianələr nağd şəkildə verilə bilər.[22] İanələr bank köçürməsi vasitəsilə edilməlidir. Qrantlar (ən

---

[21] QHT haqqında Qanun, maddə 24-1, 15 fevral 2013-cü ildə edilmiş düzəliş.

[22] Azərbaycan qanunvericiliyi xeyriyyə təşkilatlarının qeydiyyata alınması üçün qaydalar müəyyən etmir.

azı, nəzəriyyədə belədir) həm bank yolu ilə həm də nağd şəkildə verilə bilər.

İanə maliyyə vəsaiti və ya maddi formada (məsələn əşyalar, daşınmaz əmlak, əqli mülkiyyət, və s) ola bilər. İstənilən məbləğdə ianə ƏN-də qeydiyyata alınmalıdır.

QHT-lər hər hansı ianəni və ya ianələri aldıqları vaxtdan 15 gün ərzində Ədliyyə Nazirliyində (ƏN) qeydiyyata qoymalıdırlar. Qeydiyyata alınmamış ianə üzrə istənilən əməliyyat qadağandır.[23]

İanənin qeydiyyatı üçün QHT aşağıdakı sənədləri ƏN-ə təqdim etməlidir:

- İanəyə dair qaydalarda göstərilən formaya uyğun Ərizə;
- İanənin məbləğini göstərən bank çıxarışı (200 manatadək olan nağd ianələrə şamil edilmir).[24]

Nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan təşkilatlar 200 (iki yüz) manata qədər nağd ianə qəbul edə bilərlər.[25] Anonim ianələrə Azərbaycanda icazə verilmir, çünki donor haqqında məlumat Maliyyə Nazirliyinə təqdim edilən illik maliyyə hesabatlarına daxil edilən vacib məlumatlardan biridir.

Azərbaycanda "qəpik qutuları" vasitəsi ilə ianə toplanılması şərtlərini əks etdirən hər hansı qayda yoxdur. Texniki olaraq, QHT-lərə qəpik qutuları vasitəsilə ianə qəbul etməyə icazə verilmir (anonim ianələr olduğu üçün).

---

[23] QHT haqqında Qanun, maddə 24-1.5; "Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (4 oktyabr 2000-ci il), maddə 2.4.

[24] "Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 oktyabr 2015-ci il tarixli Qərarı, maddə 2.

[25] QHT haqqında Qanun, maddə 24-1.4.

## 1.9. Xidmət müqavilələrinin qeydiyyatı

Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş QHT-lər, eləcə də, xarici QHT-lərin Azərbaycanda qeydiyyatdan keçmiş filial və ya nümayəndəlikləri xarici sifarişçilərlə (xarici maliyyə mənbələri hesabına) imzaladıqları hər hansı xidmət müqaviləsini ƏN-də qeydiyyata aldırmalıdır (icazə almalıdır). Müqavilə bağlanıldığı tarixdən 15 gün ərzində xidmət göstərən (iş görən) QHT xidmət müqaviləsinin qeydiyyata alınması üçün ƏN-ə aşağıdakıları təqdim etməlidir:

- müqavilənin qeydiyyata alınması üçün təsdiq olunmuş formata uyğun hüquqi nümayəndə tərəfindən imzalanmış və QHT-nin möhürü vurulmuş ərizə;
- tərəflərin imzaladığı müqavilənin əsli;
- sifarişçinin şəxsiyyətini təsdiq edən sənədin surəti (yəni, fiziki şəxsin pasportu və ya hüquqi şəxsin qeydiyyat şəhadətnaməsi (ticarət reyestrindən çıxarış));
- müqavilə üzrə göstərilən xidmətlər və ya görülən işlər barədə müqavilənin məqsədi, müqavilənin başlama və başa çatma tarixi, mövcud vəziyyət, nəticələr, faydalanan şəxslər, iş və xidmətin həcmi, məbləği və xidmət göstəriləcəyi yer daxil olmaqla ətraflı məlumat.

Xidmət müqavilələrinin qeydiyyat qaydası xidmətlərin göstərilməsi və işlərin görülməsi üçün olan müqavilələrə, eləcə də, onlara hər hansı düzəliş və dəyişikliklərə tətbiq olunur. Müqavilə olmadan və ya qeydiyyata alınmayan müqavilələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.[26]Qeydiyyat ərizəsinə baxmaq üçün Ədliyyə Nazirliyinin 15 gün vaxtı var. "Əlavə araşdırmaya ehtiyac olduğu" müəyyən

---

[26] Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (21 oktyabr 2015-ci il tarixli), maddə 1, maddə 2;

olunarsa, ƏN-nin bu müddəti daha 15 gün uzatmaq səlahiyyəti var. Əlavə olaraq, ƏN çatışmazlıqlar aşkar etdikdə və ərizəçidən onları aradan qaldırmağı tələb etdikdə bu müddəti daha 5 gün uzatmaq səlahiyyəti var (beləliklə, cəmi 35 gün).

Hazırda İnzibati Xətalar Məcəlləsi[27] yerli və xarici QHT-lərə xidmət müqaviləsini qeydiyyata almamağa görə xüsusi cəza nəzərdə tutmur.

---

[27] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, 29 dekabr 2015.

## II hissə: Vergilər Nazirliyi qarşısında hesabatlılıq

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs vergi ödəyicisi sayılır.[28] Vergi orqanlarında uçota alınmaq üçün QHT olduğu yer üzrə vergi orqanına ərizə verir. QHT-nin daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yer onun olduğu yer sayılır.[29] QHT dövlət qeydiyyatına alındığı gündən (və ya filialının və ya nümayəndəliyinin yaradılmasından sonra) 30 gün müddətində həmin vergi orqanına ərizə verməlidir.

Vergi orqanında uçota alınmaq üçün QHT ərizə ilə aşağıda göstərilən sənədlərin surətini və məlumatları təqdim etməlidir[30]:

- dövlət qeydiyyatına alınması haqqında şəhadətnamə;
- nizamnamə (və ya əsasnamə);
- rəhbərin təyin olunmasını təsdiq edən sənəd;
- hüquqi şəxsin ünvanını təsdiq edən sənəd;
- rəhbərin şəxsiyyətini təsdiq edən sənəd;
- olduğu yer (ünvanı) haqqında məlumat.

Təsdiq edilmiş ərizə formalarını Vergilər Nazirliyinin internet səhifəsindən yükləmək olar.[31] Sənədlər vergi orqanına daxil olduğu gündən sonrakı 1 gün müddətində vergi orqanı təşkilatın uçota alınmasını həyata keçirir və bu barədə şəhadətnamə verir.[32]

---

[28] Azərbaycan Respublikasının Vergi Məcəlləsi (bundan sonra Vergi Məcəlləsi), maddə 13.2.4.

[29] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 51.

[30] Vergi Məcəlləsi, maddə 34.1.

[31] Qeyri-kommersiya hüquqi şəxsin vergi uçotuna alınması haqqında ərizə, http://vn.taxes.gov.az/1/download_new/a16.xls ; Hüquqi şəxsin filialının (bölməsinin) vergi uçotuna alınması haqqında ərizə http://vn.taxes.gov.az/1/download/huquqi_2010.xls .

[32] Vergi Məcəlləsi, maddə 34.2.

QHT-nin olduğu yer dəyişdikdə bu cür dəyişiklik baş verdiyi gündən 40 gün müddətində bu barədə vergi orqanına ərizə verilməlidir. Müraciətdən sonra 15 gün müddətində vergi orqanı QHT-nin yenidən uçota alınmasını (yəni əvvəlki vergi orqanından uçotdan çıxarılması və yeni vergi orqanında uçota alınması) həyata keçirməlidir. Bundan başqa, QHT-nin vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 40 gün müddətində vergi orqanına məlumat verilməlidir.[33]

Vergi hesabatını müəyyən edilən müddətdə təqdim etməyən QHT-yə **40 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.[34] QHT-nin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda vergi orqanına vergi hesabatının əvəzinə, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edilir.[35]

Vergi orqanında uçota alınmaq üçün ərizənin dövlət qeydiyyatına alındığı gündən və ya olduğu yerin dəyişməsi barədə **30 gün müddətində** ərizənin, həmçinin, vergi uçotuna alınma haqqında ərizədə göstərilən məlumatlarda baş vermiş dəyişiklik haqqında məlumatın dəyişiklik baş verdiyi gündən **40 gün müddətində** təqdim edilməməsinə görə **40 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.[36] Cərimə təşkilatı hesabat vermək öhdəliyindən azad etmir.

---

[33] Vergi Məcəlləsi, maddə 34.3.
[34] Vergi Məcəlləsi, maddə 57.1.
[35] Vergi Məcəlləsi, maddə 16.2.
[36] Vergi Məcəlləsi, maddə 58.2.

# III hissə: Maliyyə Nazirliyi qarşısında hesabatlılıq

## 3.1. QHT-lərin illik maliyyə hesabatları

Hər il aprelin 1-dək qeydiyyatdan keçmiş QHT-lər Maliyyə Nazirliyinə illik maliyyə hesabatını təqdim etməlidirlər.[37] QHT illik maliyyə hesabatını həmin müddətdə təqdim etmədikdə Maliyyə Nazirliyi həmin təşkilata yazılı surətdə xəbərdarlıq verir və hesabatın 30 gün müddətində təqdim edilməsinə dair göstəriş verir.[38] Bu müddətdə hesabat təqdim etməyən qeyri-hökumət təşkilatı 2500 manatdan 3000 manatadək miqdarda, vəzifəli şəxslər isə 1000 manatdan 2000 manatadək miqdarda cərimə edilir.[39]

İllik maliyyə hesabatı aşağıdakı komponentlərdən ibarətdir[40]:

- Maliyyə vəziyyəti haqqında hesabat. Forma № 1;
- Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat. Forma № 2;
- Əhəmiyyətli uçot siyasəti və izahlı qeydlər.

Qeydiyyatdan keçmiş, lakin fəaliyyəti olmayan QHT dövriyyəsinin olmamasına dair Vergilər Nazirliyindən arayış təqdim edərək illik maliyyə hesabatı təqdim etməkdən azad edilir.

---

[37] QHT haqqında Qanun, maddə 29.4; "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (4 oktyabr 2000-ci il) maddə 2.3.

[38] QHT haqqında Qanun, maddə 31.8.

[39] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 581.

[40] Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli qərarı ilə təsdiq edilmişdir).

İllik maliyyə hesabatında qeyri-hökumət təşkilatları tərəfindən alınmış hər bir ianə məbləği ayrıca əks etdirilməklə, ianəni vermiş şəxslər barədə aşağıdakı məlumatlar açıqlanır:

- ianəni verən hüquqi şəxs olduqda - hüquqi şəxsin adı, VÖEN-i, hüquqi ünvanı, bank rekvizitləri, əlaqə telefonu;
- ianəni verən fiziki şəxs olduqda - fiziki şəxsin adı, soyadı, atasının adı, şəxsiyyət vəsiqəsinin digər göstəriciləri (seriyası, nömrəsi, şəxsiyyət vəsiqəsini verən orqanın adı, verilmə tarixi, fiziki şəxsin qeydiyyatda olduğu ünvan)[41].

Qeyri-hökumət təşkilatının, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və nümayəndəliyinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatın Maliyyə Nazirliyinə təqdim olunan maliyyə hesabatına daxil edilməməsinə görə vəzifəli şəxslər 1500 manatdan 3000 manatadək miqdarda, hüquqi şəxslər isə 5000 manatdan 8000 manatadək miqdarda cərimə edilir[42].

Hesabat formalarını Maliyyə Nazirliyinin internet səhifəsindən yükləmək olar.[43] Bundan başqa Maliyyə Nazirliyinin aşağıdakı qaynar xətti mövcuddur:

Telefon: +99412 404-46-99 (daxili nömrələr: 282, 129)
E-mail: qht-hesabat@maliyye.gov.az

## 3.2. Fondlarda illik auditin keçirilməsi

Qanuna əsasən, investisiya fondları və qeyri-dövlət (özəl) sosial fondları maliyyə hesabatları ilə birlikdə auditor rəyini mətbuat orqanında və internet səhifəsi olduqda internet səhifəsində dərc

---

[41] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 25 iyun tarixli 161 nömrəli qərarı.
[42] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 465.
[43] www.maliyye.gov.az/node/1373

etməlidirlər. Bundan başqa həmin qurumlar auditor rəyini və maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda hər hansı şəxsə müraciət əsasında pulsuz təqdim etməlidirlər.[44]

Nazirlər Kabinetinin 2007-ci il tarixli 155 nömrəli qərarına əsasən, hər il aprelin 1-dək fondlar məcburi audit keçirib auditor rəyinin hazırlanmasını təmin etməlidirlər.[45] Məcburi auditdən yayınmağa görə vəzifəli şəxslər 300 manatdan 600 manatadək miqdarda, hüquqi şəxslər isə 1500 manatdan 2500 manatadək miqdarda cərimə edilir.[46]

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 31 mart 2017-ci il tarixli, 286/2 saylı qərarı ilə Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədləri müəyyən edilmişdir. Həmin qərarla Azərbaycan Respublikası Auditorlar Palatasının rəsmi internet səhifəsindən tanış ola bilərsiniz.[47]Qeyd olunan qərara əsasən QHT-nin illik xərcləri/gəlirləri 100.000 manatadək olduqda auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum həddi 1000 manat, QHT-nin illik xərcləri/gəlirləri 100.001 manatdan 200.000 manatadək olduqda auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum həddi 2000 manat, QHT-nin illik xərcləri/gəlirləri 200.001 manatdan yuxarı olduqda auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum həddi 3000 manat məbləğində müəyyən edilmişdir.

Faydalı məlumat: audit keçirmək üçün və digər suallar ilə əlaqədar olaraq Auditorlar Palatası ilə əlaqə saxlaya bilərsiniz:

www.audit.gov.az

Tel.: 465-65-48; 465-65-35; 464-80-62.

---

[44] Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu (29 iyun 2004-cü il), maddələr 2.1.9, 12.3.

[45] Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 nömrəli qərarı ilə təsdiq edilmişdir).

[46] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 464.

[47] http://audit.gov.az/uploads/Shura_286_2_min_hedd.pdf

# IV hissə: Statistik məlumatlar

Qanuna görə Azərbaycan Respublikasının ərazisində yerləşən bütün QHT-lər, onların nümayəndəlikləri və filialları dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatları müəyyən edilmiş həcmdə və müddətlərdə haqqı ödənilmədən kağız və ya elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim etməyə borcludurlar.[48] Statistika müşahidələrinin keçirilməsi üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə QHT-lər 300 manatdan 500 manatadək miqdarda cərimə edilir.[49]

# V hissə: Dövlət Sosial Müdafiə Fondu qarşısında hesabatlılıq

Bütün QHT-lər dövlət qeydiyyatına alındıqdan sonra bir ay müddətində müvafiq məlumatları təqdim etməklə məcburi dövlət sosial sığortası üzrə sığortaçı təşkilatda uçota durmalıdırlar.[50] Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu qaydalarını Dövlət Sosial Müdafiə Fondu müəyyən edir.[51]

---

[48] Rəsmi statistika haqqında Azərbaycan Respublikasının Qanunu (18 fevral 1994-cü il), maddə 11; "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (13 aprel 2010-cu il).

[49] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 389.

[50] Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu (18 fevral 1997-ci il), maddə 13.

[51] "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 aprel 1997-ci il).

Dövlət Sosial Müdafiə Fondu aşağıdakı maliyyə sanksiyalarını tətbiq etmək hüququna malikdir:

- QHT-ləri məcburi dövlət sosial sığortası üzrə uçota durma qaydalarını pozmalarına görə, o cümlədən uçota durmadıqda həmin dövr ərzində hesablanmalı olan məcburi dövlət sosial sığorta haqqı bərpa edilməklə, — sosial sığorta haqqının 5 faizi məbləğində, hesablanmalı olan sosial sığorta haqqının məbləğini müəyyənləşdirmək mümkün olmadıqda, 22 manat miqdarında;
- QHT-ləri məcburi dövlət sosial sığortası ilə əlaqədar hesabat və maliyyə sənədlərinin vaxtında təqdim edilməməsinə görə hesabat dövrü üçün hesablanmış sosial sığorta haqqının 10 faizi məbləğində hesabat dövrü üçün hesablanmalı olan sosial sığorta haqqının məbləğini müəyyənləşdirmək mümkün olmadıqda, 44 manat miqdarında;
- QHT-ləri məcburi dövlət sosial sığorta haqqı hesablanan əmək ödənişi və gəlir növlərinin gizlədilməsinə (sosial sığorta haqqının azaldılmasına) görə azaldılmış sosial sığorta haqqı bərpa edilməklə onun 50 faizi, belə hərəkətlərə təkrar yol verildikdə isə 100 faizi məbləğində;
- QHT-ləri məcburi dövlət sosial sığorta haqlarının başqa məqsədlər üçün istifadə edilməsinə görə — sərf olunmuş vəsaitlərin 50 faizi məbləğində;
- QHT-ləri, onların filial və nümayəndəliklərinin əməyin ödənilməsinin ölkə üzrə müəyyən edilmiş minimum məbləğindən az əmək haqqı ödənilməsinə görə faktiki ödənilən əmək haqqı ilə minimum əmək haqqı arasındakı fərqin 50 faizi məbləğində;
- QHT-ləri, onların filial və nümayəndəliklərinin işçilərinin sayının gizlədilməsinə görə (əmək müqaviləsi olmadan işləyənlər olduqda və ya müqaviləsi olduğu halda hesabatdan gizlədildikdə) hər işçiyə görə — sığorta edənin fəaliyyət dövrünün hər ayı üçün 55 manat miqdarında;.
- Məcburi dövlət sosial sığorta haqları üzrə borcların ödənilməsinə dair bildirişdə göstərilən müddət bitdiyi tarixdən QHT tərəfindən onun kassasından, Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hesabdan pul vəsaitinin silinməsi

növbəliyi pozulmaqla, nağd qaydada məxaric əməliyyatları aparıldıqda — aparılmış məxaric əməliyyatlarının 10 faizi miqdarında;

- QHT-lərin məcburi dövlət sosial sığorta haqqının ödənilməsi gecikdirildikdə gecikdirmənin hər gününə görə, lakin bir ildən çox olmamaq şərti ilə sığorta haqqının 0,1 faizi məbləğində penya; [52]

Bundan başqa, işəgötürən QHT məcburi dövlət sosial sığorta haqqını ödədiyi bütün işçiləri haqqında məlumatları Dövlət Sosial Müdafiə Fonduna təqdim edir.[53] QHT-lər məlumatları aşağıdakı hallarda təqdim edir:

- sığortaolunan ilk dəfə əmək fəaliyyətinə başladıqda;
- dövlət sosial sığorta şəhadətnaməsi olmayan şəxslə mülki-hüquqi xarakterli müqavilə bağlandıqda;
- sığortaolunan tərəfindən dövlət sosial sığorta şəhadətnaməsi itirildikdə;
- sığortaolunan haqqında məlumatlar dəyişildikdə[54].

DSMF-a göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar təqdim edilir:

- sosial sığorta nömrəsi;
- adı, atasının adı, soyadı;
- doğulduğu il, ay, gün və doğulduğu yer;
- cinsi;

---

[52] Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu (18 fevral 1997-ci il), maddə 21.

[53] Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında Azərbaycan Respublikasının Qanunu (27 fevral 2001-ci il) maddə 7.1; "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (26 dekabr 2001-ci il).

[54] Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında Azərbaycan Respublikasının Qanunu (27 fevral 2001-ci il) maddə 7.6.

- daimi qeydiyyatda olduğu yerin, qaçqın və məcburi köçkünlərin isə məskunlaşdıqları yerin ünvanı;
- şəxsiyyəti təsdiq edən sənədin seriyası, nömrəsi, verilmə tarixi və sənədi verən orqanın adı;
- vətəndaşlığı;
- telefon nömrəsi.[55]

İlk dəfə əmək fəaliyyətinə başlayan sığortaolunan barədə məlumatlar bir ay müddətində QHT tərəfindən DSMF-a təqdim edilir.[56] Sığortaolunan işdən azad edildikdə, sonuncu məlumat təqdim olunan dövrdən sığortaolunanın işdən azad edildiyi günədək olan dövr üçün sığortaolunan haqqında məlumatları ümumi qaydada QHT DSMF-a təqdim edir, sığortaolunana isə həmin gün təqdim edir.[57]

İşçiləri ilə əmək müqaviləsi bağlamış QHT-lər əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq sığortaedən tərəfindən ödənilən sığorta haqqı üzrə – hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi və sığortaolunan tərəfindən ödənilən sığorta haqqı üzrə – işçinin əməkhaqqının 0,5 faizi miqdarında DSMF-yə tam məbləğdə işsizlikdən sığorta haqqı ödəyir.[58]

İşsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınmağa görə inzibati xətanın bilavasitə obyekti olmuş ödənişlərin məbləğinin otuz faizindən yetmiş faizinədək məbləğdə

---

[55] Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında Azərbaycan Respublikasının Qanunu (27 fevral 2001-ci il) maddə 5.2.

[56] Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında Azərbaycan Respublikasının Qanunu (27 fevral 2001-ci il) maddə 7.7.1.

[57] Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında Azərbaycan Respublikasının Qanunu (27 fevral 2001-ci il) maddə 7.13.

[58] İşsizlikdən sığorta haqqında Azərbaycan Respublikasının Qanunu (30 iyun 2017-ci il) maddə 9.0.1, 9.0.2, 10.3; "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (5 avqust 2017-ci il) maddə 2.8

cərimə edilir.[59] Qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada sığortaolunanlar haqqında məlumatların DSMF-a təqdim edilməməsinə görə fiziki şəxslər 100 manat miqdarında, vəzifəli şəxslər 350 manat miqdarında cərimə edilir.[60]

Qeyd edilən hesabatlılığı yerinə yetirmək üçün Dövlət Sosial Müdafiə Fondu öz internet səhifəsində aşağıdakı nümunəvi formaları yerləşdirmişdir:

- Fərdi uçot formaları: www.sspf.gov.az/view.php?lang=az&menu=97
- «Sığortaedənin Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatı»nın tərtibi Qaydaları www.sspf.gov.az/view.php?lang=az&menu=100&id=373

## VI hissə: Dövlət Məşğulluq Xidməti qarşısında hesabatlılıq

İşçilərin sayı və ya ştatları ixtisar edildikdə QHT-lər işdən çıxarılacaq işçilərin peşəsini, ixtisasını və əməkhaqqının məbləğini göstərməklə, onların sərbəstləşdiriləcəyi barədə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilən xəbərdarlıq müddətindən az olmayaraq əvvəlcədən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) rəsmi məlumat verməlidirlər.[61] QHT-lər yeni iş yeri yarandığı və ya iş yeri boşaldığı gündən ən geci 5 (beş) iş günü müddətində əməkhaqqı göstərilməklə bu barədə məlumatları elektron informasiya sisteminə

---

[59] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 460.

[60] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 477.

[61] Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu (bundan sonra - "Məşğulluq haqqında Qanun"), 29 iyun 2018-ci il, maddə 18.2; "Məşğulluq haqqında Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (24 avqust 2018-ci il) maddə 2.5.

daxil etməlidirlər.[62] QHT-lər ƏƏSMN-ə həmin nazirliyin göndərişi ilə işə qəbul edilənlər, o cümlədən kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabatlar təqdim etməlidirlər.[63] QHT-lər ƏƏSMN-in müvafiq göndərişi təqdim edildiyi gündən ən geci 5 (beş) iş günü müddətində boş iş yerinin tutulub-tutulmaması ilə bağlı qərarını qəbul edərək ƏƏMN-ə təqdim etməlidir.[64]

İşçilərin sayı və ya ştatları ixtisar edildikdə işdən çıxarılacaq işçilər və ya boş iş yeri (vakansiya) barədə müəyyən olunmuş müddətlərdə rəsmi məlumatın verilməməsinə görə QHT-lər 50 manat miqdarda cərimə edilir. ƏƏSMN-ə onun göndərişi ilə işə qəbul edilənlər, kvota üzrə işə qəbul edilənlər və ya işdən çıxarılanlar haqqında müvafiq hesabatın təqdim edilməməsinə görə işəgötürənlər, o cümlədən QHT-lər 60 manat miqdarda cərimə edilir.[65]

ƏƏSMN tərəfindən göndərilmiş əlilləri, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxsləri və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxsləri onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən, yaxud dövlət büdcəsinə vəsait köçürməyən işəgötürənlər, 1500 manatdan 2000 manatadək məbləğdə cərimə edilirlər.[66].

---

[62] Məşğulluq haqqında Qanun, maddə 18.3;

[63] Məşğulluq haqqında Qanun, maddə 18.4; "Məşğulluq haqqında Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (24 avqust 2018-ci il) maddə 2.5

[64] Məşğulluq haqqında Qanun, maddə 18.7; "Məşğulluq haqqında Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (24 avqust 2018-ci il) maddə 2.5

[65] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 540.

[66] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 194; "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasi Prezidentinin 15 fevral 2016-cı il tarixli Fərmanı, maddə 4.20.

## VII. Terrorizm və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində öhdəliklər

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun[67] tələbləri Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycanda filial və ya nümayəndəliklərinə" şamil edilir.

QHT-lərin bu sahədə yoxlanılması Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Lakin, tələblər daha çox şübhəli əməliyyatları olan və Ədliyyə Nazirliyində qeydiyyata qoyulmayan vəsaitlərdən istifadə edən (misal üçün, qeydiyyatsız qrant, ianə və ya xidmət müqaviləsi) QHT-lərə aid edilir. Bu təşkilatlara dair məlumatlar Ədliyyə Nazirliyinə KİV, hüquqi və fiziki şəxslər, eləcə də Maliyyə Monitorinq Xidməti tərəfindən təqdim edilə bilər.

QHT bu sahədə öhdəliklərini yerinə yetirmək üçün aşağıdakı addımları atmalıdır:

1. Məsul şəxsin təyin edilməsi

QHT öz sədrini və ya hər hansı əməkdaşı və ya üzvünü terrorizm və çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə məsul şəxs təyin etməlidir. Bu vəzifə könüllü vəzifə kimi də ola bilər. Bu şəxsin əsas vəzifəsi aşağıdakıdan ibarətdir:

- terrorizm və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində təşkilatin daxili qayda və prosedurların həyata keçirilməsinə nəzarət etmək;
- Maliyyə Monitorinq Xidməti ilə məlumat mübadiləsini həyata keçirmək;
- Monitorinq olunmalı əməliyyatlara dair hesabatlar hazırlamaq;

---

[67] 2009-cu ildə qəbul edilib.

- Bu sahədə mütəmadi təlimlər keçirmək.

2. Daxili auditorun təyin edilməsi

QHT Auditor Palatasında bir nümayəndə ilə müqavilə bağlayaraq və ya müvafiq təcrübəsi olan əməkdaşını təlimatlandıraraq daxili auditor seçə bilər. Daxili auditorun əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- təşkilat tərəfindən qeyd edilən qaydalara əməl edilməsini yoxlamaq;
- aşkar edilmiş nöqsanların aradan qaldırılmasına dair tövsiyyələr vermək;

- aparılmış yoxlamaların nəticələri və aşkar edilmiş hər bir faktın müvafiq qaydada sənədləşdirilməsini təmin etmək və təşkilatın rəbhərliyini məlumatlandırmaq;

- daxili nəzarət sisteminin adekvatlığını təhlil etmək.

3. Daxili nəzarət sisteminin (qayda və prosedurlar) hazırlanması və əsasnamənin təsdiqi

QHT aşağıdakı qayda və prosedurları hazırlamalıdır:

- müştərinin və benefisiarın eyniləşdirilməsi və verifikasiyası üzrə daxili qayda və prosedurlar;
- monitorinq olunmalı əməliyyatların aşkarlanması meyarları (indikatorlar);
- şübhəli əməliyyatların aşkarlanması, qarşısının alınması və məlumatların Maliyyə Monitorinqi Xidmətinə təqdim olunması üzrə qaydalar;
- məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsi qaydaları;
- işə qəbul və işçilərin yoxlanması qaydaları.

Qeyd edilən qaydalar təşkilatın rəhbəri tərəfindən təsdiq edilməli və möhür vurulmalıdır.

4. Müştərilərin eyniləşdirilməsi və verifikasiyası

QHT yeni müştərinin şəxsiyyətinin qənaətbəxş dərəcədə yoxlanılmasınadək işgüzar münasibətlər qurmamalıdır.

Eyniləşmə zamanı QHT-lər hüquqi şəxsin nizamnaməsi və dövlət qeydiyyatına alınması haqqında sənəd əsasında hüquqi şəxsin hüquqi ünvanını, təşkilati-hüquqi formasını, təsisçilərin adını, həmçinin hüquqi şəxsin hüquqi statusunu müəyyən etməlidirlər. Fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd əsasında aparılır. Eyniləşmə üçün əldə edilən sənədlərin surəti ayrıca qovluqda 5 il ərzində saxlanılmalıdır.

Verifikasiya üçün: (hüquqi şəxslərdə) hüquqi şəxsin təqdim etdiyi məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatlarla üzləşdirilməli; ii) hüquqi şəxsin fəaliyyəti barədə kütləvi informasiya vasitələrindən, internet informasiya ehtiyatlarından və ya rəsmi nəşrlərdən məlumatların əldə olunmalı; iii)əldə olunan yeni məlumatların əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatları ilə üzləşdirilməlidir.

Fiziki şəxsin verifikasiyası üçün: i) doğum haqqında şəhadətnamə, pasport, sürücülük vəsiqəsi və ya digər rəsmi sənəd əsasında doğum tarixinin təsdiqlənməli; və ii) mənzil-kommunal xidməti və ya qeyri-yaşayış sahələrindən istismar haqqı üçün mədaxil qəbzləri, yaxud mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi əsasında yaşayış yeri üzrə qeydiyyatın təsdiqlənməlidir).

QHT qeyri-rezidentlərin (əcnəbilərin) Azərbaycan Respublikasında bank hesablarının açılması, eləcə də pul vəsaitləri

və ya digər əmlakla əməliyyatların aparılması əsaslarını hər bir halda araşdırmalıdır.

5. Şübhəli əməliyyatlar barədə Maliyyə Monitorinq Xidmətinə məlumatın verilməsi

QHT-nin məsul şəxsi hər hansı şübhəli əməliyyat və ya məqsədi dəqiq bilinməyən əməliyyat barədə Maliyyə Monitorinq Xidmətinə məlumat verməlidir. Məlumat verildikdən sonra müvafiq araşdırmanın aparılması Maliyyə Monitorinq Xidmətinin səlahiyyətinə aid edilir.

6. Müvafiq təlimlərin keçirilməsi

QHT öz əməkdaşlarına bu sahədə mütəmadi təlimlər keçməlidir. Bu təlimlərdə müvafiq aktlarla tanışlıq, terrorizmin maliyyələşdirilməsi və çirkli pulların yuyulması ilə mübarizənin vacibliyi və təşkilatın bu sahədə öhdəlikləri əməkdaşlara aşılanmalıdır.

İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsi ilə qeyd edilən qaydaların pozulmasına görə: vəzifəli şəxslər 800-1500 manat, hüquqi şəxslər isə 8000-15000 manat məbləğində cərimə edilir.

# İSTİFADƏ OLUNMUŞ SƏNƏDLƏRİN SİYAHISI


1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. 2015
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 1999
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 2000
4. Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında Azərbaycan Respublikasının Qanunu (27 fevral 2001-ci il)
5. Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu (12 dekabr 2003-cü il)
6. Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu (13 iyun 2000-ci il)
7. Qrant haqqında Qanun (17 aprel 1998)
8. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu (29 iyun 2018-ci il)
9. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu (29 iyun 2004-cü il)
10. Rəsmi statistika haqqında Azərbaycan Respublikasının Qanunu (18 fevral 1994-cü il)
11. Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu (18 fevral 1997-ci il)
12. İşsizlikdən sığorta haqqında Azərbaycan Respublikasının Qanunu (30 iyun 2017-ci il)
13. Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikasının Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (30 avqust 2000-ci il)
14. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasi Prezidentinin Fərmanı

15. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (5 avqust 2017-ci il)

16. “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (26 dekabr 2001-ci il)

17. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (12 aprel 2004-cü il)

18. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (4 oktyabr 2000-ci il)

19. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (24 avqust 2018-ci il)

20. “Rəsmi statistika haqqında Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (13 aprel 2010-cu il)

21. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 aprel 1997-ci il)

22. Qeyri-Hökumət Təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 dekabr 2009-cu il tarixli 201 nömrəli qərarı ilə təsdiq edilmişdir)

23. Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə “Daxili audit haqqında” Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri (Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 nömrəli qərarı ilə təsdiq edilmişdir)
24. Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 iyun 2015-ci il tarixli 216 nömrəli Qərarı)
25. “Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 oktyabr 2015-ci il tarixli Qərarı
26. Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (21 oktyabr 2015-ci il tarixli)
27. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 31 mart 2017-ci il tarixli, 286/2 saylı qərarı
28. “Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin dövlət qeydiyyatının aparılması Qaydaları” (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin 19 mart 2012-ci il tarixli Kollegiya Qərarı ilə təsdiqlənib).
29. Quluzadə Məhəmməd, Qasımov Azər, Rzayev Emin “Azərbaycanda QKT-lərin gəlirlərinin tənzimlənməsi”, Bakı-2017.
30. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanun, 2009.

## ƏLAVƏ 1: VERGİLƏRİN ÖDƏNİLMƏSİ VƏ BƏYANNAMƏLƏRİN VERİLMƏ MÜDDƏTLƏRİ

**Vergi növləri üzrə öhdəliklər,**

**verginin ödənilməsi və bəyannamələrin təqdim edilməsi müddətləri**

| 1. Fiziki şəxslərin gəlir vergisi: | |
|---|---|
| İl üzrə yekun ödəmə və bəyannamənin təqdim edilməsi | hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq (31/III) |
| Cari ödəmələr | hər rüb başa çatdıqdan sonra 15 gün ərzində (15/IV, 15/VII, 15/X və 15/I) |
| Xüsusi notariusların gəlir vergisi | hesablanmış gəlir vergisi hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq (20 /I – XII)<br><br>bəyannamə isə hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq (20/IV, 20/VII, 20/X və 20/I) |
| İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarış və müsabiqələrdən uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi | hesablanmış gəlir vergisi hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq (20 /I – XII)<br><br>İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarış və müsabiqələrdən uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq (20 /I – XII) |
| **2. Mənfəət vergisi:** | |
| İl üzrə yekun ödəmə və bəyannamənin təqdim edilməsi | hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq (31/III) |
| Cari ödəmələr | hər rüb başa çatdıqdan sonra 15 gün ərzində (15/IV, 15/VII, 15/X və 15/I) |
| **3. Əlavə dəyər vergisi** | |
| Verginin ödənilməsi və bəyannamənin | hesabat ayından sonrakı ayın |

| | |
|---|---|
| təqdim edilməsi | 20-dən gec olmayaraq (20 /I – XII) |
| **4. Aksiz vergisi** | |
| Verginin ödənilməsi və bəyannamənin təqdim edilməsi | hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq (20 /I – XII) |
| **5. Əmlak vergisi** | |
| Hüquqi şəxslər üçün il üzrə yekun ödəmə və bəyannamənin təqdim edilməsi | hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq (31/III) |
| Cari ödəmələr | rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq (15/II, 15/V, 15/VIII və 15/XI) |
| Fiziki şəxslər üçün il üzrə yekun ödəmələr | cari il üçün bərabər hissələrlə həmin ilin avqustun 15-dək və noyabrın 15-dək (15/VIII və 15/XI) |
| **6. Torpaq vergisi** | |
| Hüquqi şəxslər üçün bəyannamələrin təqdim olunması | həmin ilin may ayının 15-dən gec olmayaraq (15/V) |
| Hüquqi və fiziki şəxslər üçün il üzrə yekun ödəmələr | bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq (15/VIII və 15/XI) |
| **7. Yol vergisi** | |
| Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən verginin tutulması | xarici dövlətlərin avtonəqliyyat vasitələrindən yol vergisini həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tərəfindən tutulur və **1 bank günü** ərzində dövlət büdcəsinə köçürülür. |
| Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər tərəfindən bəyannamənin verilməsi və | hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq (20 /I – XII) |

| | |
|---|---|
| verginin ödənilməsi | |
| **8. Mədən vergisi** | |
| Verginin ödənilməsi və bəyannamənin təqdim edilməsi | hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq (20 /I – XII) |
| **9. Sadələşdirilmiş vergi** | |
| Verginin ödənilməsi və bəyannamənin təqdim edilməsi | hesabat rübündən sonrakı ayın 20-dək (20/IV, 20/VII, 20/X və 20/I) |
| **Torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə sadələşdirilmiş verginin ödənilməsi**<br><br>bəyannamənin təqdim edilməsi | Torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən **notarius** sadələşdirilmiş vergini hesablayaraq **1 (bir) bank günü** ərzində dövlət büdcəsinə ödəməlidir.<br><br>hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq (20 /I – XII) |
| **İdman mərc oyunlarının həyata keçirilməsi üzrə** sadələşdirilmiş verginin ödənilməsi və bəyannamənin təqdim edilməsi | hesabat rübündən sonrakı ayın 20-dək (20/IV, 20/VII, 20/X və 20/I) |
| **Respublika daxilində avtomobil nəqliyyatı ilə yük və sərnişin daşımaları üzrə sadələşdirilmiş verginin ödənilməsi** | Vergi təqvim ayının sonunadək növbəti dövr (ay, rüb, yarım il, il) üçün hər bir avtomobil nəqliyyatı vasitəsinə görə "Fərqlənmə nişanı" alınarkən dövlət büdcəsinə ödənilir və bu barədə vergi orqanına bəyannamə təqdim edilməsi tələb olunmur |
| **Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi** | Vergi təqvim ayının sonunadək növbəti dövr (ay, rüb, yarım il, il) üçün Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə muzdlu işçi cəlb etmədən fərdi |

| | |
|---|---|
| | qaydada məşğul olan fiziki şəxslər tərəfindən hər bir fəaliyyət üzrə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" alarkən ödənilir və bu barədə vergi orqanına bəyannamə təqdim edilməsi tələb olunmur |
| Bina tikintisi fəaliyyəti üzrə bəyannamənin təqdim edilməsi<br><br>verginin ödənilməsi | tikinti-quraşdırma işlərinin başlandığı rübdən sonrakı ayın 20-dən gec olmayaraq<br><br>Bəyan olunmuş vergi məbləği bərabər hissələrlə 10 faiz həcmində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək |
| **Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi** | Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək müvafiq bəyannamə vergi orqanına təqdim edilir |
| **10. Ödəmə mənbəyində tutulan vergilər**<br>**(Hüquqi şəxslərin və fərdi sahibkarların öhdəlikləri)** | |
| Verginin ödənilməsi | fiziki şəxslərə muzdlu işlə əlaqədar gəlir, habelə sığorta haqları (sığorta müqaviləsinə vaxtından əvvəl xitam |

| | |
|---|---|
| | verildikdə) ödənilərkən, hesablanmış aylıq gəlirdən gəlir vergisi hesablanır və hesablanmış vergi **növbəti ayın 20-dən gec olmayaraq** dövlət büdcəsinə köçürülür.<br><br>qeyri-dövlət pensiyaları və Vergi Məcəlləsinin 150-ci maddəsinə əsasən ödəmə mənbəyində vergi tutulmalı olan digər ödəmələri verilərkən bu gəlirdən vergi tutulur və tutulmuş vergi gəlirin ödənildiyi **rübdən sonrakı ayın 20-dən gec olmayaraq** dövlət büdcəsinə köçürülür. |
| Bəyannamənin verilməsi | muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin **yanvar ayının 31-dən gec olmayaraq**, digərləri isə gəlirin ödənildiyi **rübdən sonrakı ayın 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilir. |
| **11. Dövlət rüsumu** | |
| rüsumun dövlət büdcəsinə köçürülməsi və hesabatın verilməsi | - notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək **iki bank günü** ərzində,<br><br>- Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu **bir** |

| | |
|---|---|
| | **ay** ərzində,<br><br>- digər dövlət rüsumları isə tutulduqdan sonra **bir bank günü** ərzində dövlət büdcəsinə köçürülür və hesabat rübündən sonrakı ayın **20**-dək (20.IV, 20.VII, 20.X və 20.I. tarixlərinədək) hesabat vergi orqanına təqdim edilir. |

**Mənbə:**

http://www.taxes.gov.az/modul.php?name=beyanname&cat=2&lang=

## ƏLAVƏ 2: İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİNDƏN ÇIXARIŞLAR

**Maddə 194. Kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməmə**

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən göndərilmiş əlillərin, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxslərin onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul edilməməsinə, yaxud dövlət büdcəsinə vəsait köçürülməməsinə görə-min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**Maddə 389. Statistik məlumatların verilməsi qaydalarının pozulması**

Statistik müşahidələrin aparılması üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə-

- üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

**Maddə 403. Hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı yanlış məlumatların verilməsi**

Hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınması, habelə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyinin və ya filialının və digər qurumlarının dövlət reyestrinə daxil edilməsi, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınması zamanı müvafiq icra hakimiyyəti orqanına yanlış məlumatların verilməsinə

görə - fiziki şəxslər yeddi yüz manat məbləğində, hüquqi şəxslər dörd min manat məbləğində cərimə edilir.

**Maddə 432. Qrant alınması (verilməsi) haqqında qanunvericiliyin pozulması**

432.1. Qrant verən Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxsi, yaxud Azərbaycan Respublikasının hüquqi şəxsinin filial və ya nümayəndəliyi olan donorlar və ya qrant alan Azərbaycan Respublikasının resipiyentləri tərəfindən qrant alınması (verilməsi) haqqında müqavilələrin və qərarların qeydiyyat üçün qanunvericiliklə müəyyən edilmiş müddətlərdə müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsinə görə -

fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

432.2. Dini qurumlar tərəfindən qrant alınması (verilməsi) haqqında müqavilələrin və qərarların müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmadan həmin qrantlardan istifadə və onlar üzrə əməliyyatlar aparılmasına görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

432.3. Qrant müqaviləsi (qərarı) olmadan Azərbaycan Respublikasında fəaliyyət göstərən dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri tərəfindən maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada yardımın qəbul edilməsinə görə -

inzibati xətanın bilavasitə obyekti olmuş vəsait və əşyalar müsadirə olunmaqla vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.

432.4. Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri, yaxud banklar tərəfindən "Qrant haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada qeydiyyata alınmamış qrant alınması (verilməsi) haqqında müqavilələr (qərarlar) üzrə bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılmasına görə -

vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**Qeyd**: "Dini etiqad azadlığı haqqında" və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan ianələrə və dövlət hakimiyyəti orqanlarının yardımlarına bu Məcəllənin 432.3-cü maddəsinin qüvvəsi şamil edilmir.

**Maddə 460. Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma**

Az miqdarda vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınmağa görə - inzibati xətanın bilavasitə obyekti olmuş vergilərin və ödənişlərin məbləğinin otuz faizindən yetmiş faizinədək məbləğdə cərimə edilir.

**Qeyd**:

1. Bu maddədə "az miqdar" dedikdə, iyirmi min manatdan yuxarı olmayan məbləğ başa düşülür.[213]

2. Bu maddədə nəzərdə tutulmuş əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə inzibati məsuliyyətdən azad olunur.

**Maddə 462. Mühasibat uçotu üzrə qanunvericiliyin pozulması**

Mühasibat uçotu subyekti tərəfindən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının və müvafiq icra hakimiyyəti orqanına və müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma təqdim edilməli olan digər hesabat və məlumatların qanunvericiliyə müvafiq olaraq hazırlanması, təqdim olunması, dərc edilməsi, o cümlədən hesabatlarda və qanunvericiliyə əsasən tələb olunan digər məlumat formalarında informasiya və göstəricilərin tam və ya düzgün əks etdirilməməsinə, həmçinin uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulmasına görə

vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir. Maddə 464. Məcburi auditdən yayınma

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə -

vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**Maddə 465. İanələr barədə məlumatın maliyyə hesabatına daxil edilməməsi**

**Qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-**hökumət təşkilatının filial və nümayəndəliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanına və ya siyasi partiya tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim olunan maliyyə hesabatına qəbul edilmiş ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatın daxil edilməməsinə görə

vəzifəli şəxslər min beş yüz manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir. Maddə 466. İanə edilən pul vəsaitlərinin nağd şəkildə verilməsi və qəbul edilməsi

**466.1. İanə edilən pul vəsaitlərinin siyasi partiyaya və ya qeyri-hökumət təşkilatına, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə nağd şəkildə verilməsinə görə -**

fiziki şəxslər iki yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər yeddi yüz əlli manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min beş yüz manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

**466.2. İanə edilən pul vəsaitlərinin siyasi partiya və ya qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi tərəfindən nağd şəkildə qəbul edilməsinə görə -**

vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan on min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Azərbaycan Respublikasında fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan qeyri-hökumət təşkilatına nağd şəkildə verilən və həmin təşkilat tərəfindən

nağd şəkildə qəbul edilən iki yüz manatadək ianələrə bu maddənin qüvvəsi şamil edilmir.

**Maddə 477. Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında qanunvericiliyin pozulması**

Sığortaedənlər tərəfindən "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə və qaydada sığortaolunanlar haqqında məlumatların müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsinə görə –

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər üç yüz əlli manat məbləğində cərimə edilir.

**Maddə 540. Məşğulluğun təmin edilməsi sahəsində məlumatın, hesabatın verilməməsi**

540.1. İşçilərin sayı və ya ştatları ixtisar edildikdə, işdən çıxarılacaq işçilər və ya boş iş yeri (vakansiya) barədə müəyyən olunmuş müddətlərdə müvafiq icra hakimiyyəti orqanına rəsmi məlumatın verilməməsinə görə-

əlli manat məbləğində cərimə edilir.

540.2. Müvafiq icra hakimiyyəti orqanına, həmin orqanın göndərişi ilə işə qəbul edilənlər, kvota üzrə işə qəbul edilənlər və ya işdən çıxarılanlar haqqında müvafiq hesabatın təqdim edilməməsinə görə-altmış manat məbləğində cərimə edilir.

**Maddə 581. Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və**

**ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan qaldırılmaması**

Qeyri-hökumət təşkilatları, xarici qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan qaldırılmamasına görə -

vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

## ƏLAVƏ 3: HESABAT FORMALARI – Ədliyyə Nazirliyi

*Qeyri-kommersiya qurumlarının dövlət qeydiqeydiyyatının aparılması ılarına Əlavə №4*

____________________________________________

____________________________________________

(dövlət qeydiyyatı orqanının adı)

____________________________________________

____________________________________________

(qeyri-kommersiya qurumunun adı, təşkil təşkilati-hüquqi .sı, qeydiyyat tarixi və nömrəsi hüquqi ünvanı)

____________________________________________

____________________________________________

(təsisçinin (təsisçilərin) və ya səlahiyyətli şəxsin (şəxslərin) adı,soyadı, atasının adı, yaşayış yeri, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verilmə tarixi və vəkalətnamə haqqında məlumat) tərəfindən

Ə R İ Z Ə

________________________________________________________

(qurumun adı, təşkilati-hüquqi forması və dəyişikliyin məzmunu)

qeydiyyata alınmasını xahiş edirik.

Qeydiyyata alınmaq üçün təqdim olunan faktlar və saxlanmağa verilən sənədlər düzgündür. Yanlış məlumat verilməsinə görə qanunla məsuliyyət müəyyən edilməsindən xəbərdaram.

Qoşma:

___________________________________________

___________________________________________

___________________________________________

(saxlanmaq üçün qeydiyyat orqanına təqdim edilən sənədlər barədə məlumat)

Təsisçi (təsisçilər) və ya səlahiyyətli şəxs (şəxslər): ____________________ (adı,soyadı,atasının adı) _________ (imza)

Qeyd: ərizə hüquqi şəxsin möhürü ilə təsdiq edilir.

Qoşulan sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə göstərilir.

*Qeyri-kommersiya qurumlarının dövlət qeydiqeydiyyatının aparılması alarına Əlavə №5*

| “**Dövlət qeydiyyatına alınmışdır**” | “**Təsdiq edilmişdir**” |
|---|---|
| ____________________ (qeydiyyat orqanının adı) | ________________ _____20... (səlahiyyətli orqanın adı) |
| Qeydiyyat № ______________ | il tarixli qərarı ilə |
| “_____” ____________ 20 … il | ______________________ |
| ______________________ (vəzifəli şəxsin vəzifəsi, adı, soyadı) | (səlahiyyətli şəxsin (şəxslərin) vəzifəsi, adı,soyadı və ya təsisçi (təsisçilərin) adı, soyadı) |
| ______________________ (imza) | ______________________ (imza) |

M.Y.

_________.... il tarixdə ________ nömrə ilə __________ tərəfindən dövlət
(qeydiyyat orqanın adı)

qeydiyyatına alınmış __________nizamnaməsinin (əsasnaməsinin) ___…
(qurumun adı)

bəndinə edilmiş dəyişikliklər/əlavələr:

*Qeyri-kommersiya qurumlarının*
*t qeydiyyatının aparıaparılması*
*alarına Əlavə №6*

**“Dövlət qeydiyyatına alınmışdır”**

_____________________________
(qeydiyyat orqanının adı)

“_____” _____________ 20 -c… il

_____________________________

(vəzifəli şəxsin vəzifəsi, adı, soyadı)

_____________________________
(imza)
M.Y.

**“Təsdiq edilmişdir”**

____________________ ___20 –c
(səlahiyyətli orqanın adı) il tarixli qərarı ilə
_____________________________
(səlahiyyətli şəxsin vəzifəsi, adı, soyadı və ya təsisçi (təsisçilərin) adı, soyadı)

_____________________________

(imza)

_____________________________
**(qurumun adı)**

**NİZAMNAMƏSİ (ƏSASNAMƏSİ)**

**(__–C… REDAKSİYADA)**

**ISBN** 978-9952-37-133-8

**Tiraj**: 500 ədəd

**Rəylər üçün:** mguluzade@mgc.az